

■ Səadət QƏRİB

## BU ÜRƏK

Bircə dəfə sən könlümə qonaq gəl,
Qoy sevinsin sevgi dolu bu ürək.
Qoy görüşsün xəyallarım vüsalla,
Hicranımın yolu olub bu ürək,
Sənsiz sənlə dolu olub bu ürək.

Bircə dəfə dolaş mənim qanımda,
Gör nələr var səni sevən canımda,
Sən məndəsən, olmasan da yanımda,
Həsrətindən dəli olub bu ürək
Sənsiz sənlə dolu olub bu ürək...

Bircə dəfə ol arzumun pənahı,
Mən çəkəcəm bu əzabı, günahı,
Bircə dəfə ol gecəmin sabahı,
Sevdamızın qulu olub bu ürək
Sənsiz sənlə dolu olub bu ürək...

Bircə dəfə yaşa mənlə zamanı,
Qoy böyüsün eşqimizin gümanı,
Gözləyirəm qovuşacaq o anı,
Könlümüzdə ulu olub bu ürək
Sənsiz sənlə dolu olub bu ürək.

## GÖZƏL SEV MƏNİ

Gərək sevəndə də gözəl sevəsən,
Hər sevən bilmir ki, sevgi nə demək.
Sevgi ülviyyətdir, sevgi cəsarət,
Allah! Nə gözəldir gözəl sevilmək.

Sevmək istəyirsən ruhun ilə sev,
Saflığı könlünə dilə, sev məni.
Məsələn, söyləyim necə sev məni -
Kərəmtək alış-yan, belə sev məni!

Sev məni, göldəki sonalar kimi,
Çünki bir-birindən ayrılmır onlar.
Sev məni, dənizdə balıqlar kimi,
Çünki səssiz eşqdə fırtınalar var.

Dərdləş mənimlə sən, aç ürəyini
Eşqin yollarında duraq bərabər.
Hörmət et sevgimə əvvəlki kimi,
Ömrü birgə başa vuraq bərabər.

Nəfəstək sev məni, gözucu deyil,
Bu eşqin bir anı getməsin hədər.
Sev məni, bağçada min bir həvəslə,
Bir bağban gülləri sevdiyi qədər.

Bilmirəm, çox şeymi istəyirəm mən,
Əgər səhvim varsa, keç günahımdan.
Bilirsən, kimdəndir bu eşq diləyim?
Əzizim, bir səndən, bir Allahımdan.

## YAŞAMAQ ÇOX GÖZƏL

Nəşə-sevinc qədər qəm-qüssə gözəl,
Səninlə ağlayıb, gülənin varsa.
Hətta gülmək qədər ağlamaq gözəl,
Əgər gözyaşını silənin varsa.

Eşq, sevgi əməkdir, çəkirsən zəhmət,
Anlayanın varsa, gözəldir söhbət.
Hörmətlə ucalar ülvi məhəbbət,
Əgər dəyərini bilənin varsa.

Sevginin gözyaşı "duyğu qalası",
Həsrət də sevginin şirin bəlası,
Ürək çox istərsə vüsal olası,
Hicran da gözəldir, gələnin varsa.

Ömür keşməkeşli, yüz dərdin olsa,
Ürəyin ağlasa, gözlərin dolsa,
Başını qoyacaq bir çiyin olsa,
Güclüsən, dərdini bölənin varsa.
Yaşamaq çox gözəl, sevənin varsa.

## QALMADI

Bilirsən nə qədər gözlədim səni,
Yox, daha bilməyə lüzum qalmadı.
Həsrətin çox yordu sevən ürəyi,
Sənə deyiləsi sözüm qalmadı.

Bu gözlər həsrətdən qaynar bulaqdı,
Qaranlıqda nuru görən çıraqdı,
Nə biləydim axı, sevgin qonaqdı,
Vurduğun atəşin közü qalmadı.

Adını dilimdə əzbər etmişdim,
Səninlə acını şirin bilmişdim,
Əbədi sevgiyə mən and içmişdim,
Dilimin deməyə sözü qalmadı...

İnsafsız deməyə dilim gəlmədi,
Rəsmini cırmağa əlim gəlmədi,
Əcəli çağırdım, ölüm gəlmədi,
Daha bu sevdamın özü qalmadı.

Qəlbimə yeni eşq əkə bilmədim,
Dərdimi açıb da bükə bilmədim,
Yollardan gözümü çəkə bilmədim,
Əfsanə eşqimin izi qalmadı.

## SÖZSÜZ NƏĞMƏM

Mənim bir nəğməm var sözləri yoxdur,
O sözsüz nəğmənin bəstəkarı mən.
O həzin musiqi, o sözsüz nəğmə
Süzülür qəlbimin dərinliyindən.

Hələ ki, duyan yox sözsüz nəğməmi,
Məni anlamayan deyər: dəlidi.
Bir pərdə üstündə dinər ürəyim,
Belə nəğmə olar?... Çox gülməlidir.

Kaman bu nəğməmi çalsa ağlayar,
Zildə fəryad edər, bəm də qəm tökər.
Tarı dindirməyin, qıymaram ona,
Mizrab qeyzə gələr, simləri sökər.

O sözsüz nəğməmə söz yazammadım,
Çünki,o nəğməmə acizdi söz də.
Bu qəmli, nisgilli eşq nəğməsinin,
Səsi könüldədi sözləri gözdə.